# Sülh razılaşması Cənubi Qafqazda sabitliyin və inkişafın əsas şərtidir



***Müharibə dövründə olduğu kimi, indiki mərhələdə də dövlətimizin başçısının informasiya sahəsində fəaliyyəti Ermənistan və erməni lobbisinin, Azərbaycanı istəməyən xarici qüvvələrin tərksilah edilməsində, beynəlxalq ictimaiyyətin obyektiv məlumatlandırılmasında mühüm rol oynayır.***

Prezident İlham Əliyevin dekabrın 14-də Brüsseldə İspaniyanın "El Pais" qəzetinə müsahibəsi də bu baxımdan mühüm önəm daşıyır. Bu, ölkə rəhbərinin təkcə dövlət idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə deyil, həm də dövlətin informasiya siyasətinə yeni strateji baxış nümayiş etdirdiyini göstərir.

Dövlətimizin başçısı əvvəlki müsahibələrində olduğu kimi, "El Pais" qəzetinin müxbirinin respublikamızın haqlı mövqeyi ilə bağlı sualları da təmkinlə, uzaqgörənliklə, siyasi peşəkarlıqla əsaslandırır, məsələnin mahiyyətini səbrlə izah edir, zəruri sənədlərə və tarixi faktlara istinadən öz mövqeyini, habelə dediklərinin doğruluğunu, ədalətə söykəndiyini sübuta yetirir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin informasiyaya dair strategiyası şəffaflıq, obyektivlik, sistemlilik, operativlik kimi prinsiplərə əsaslanır, milli maraqların müdafiəsi, ölkə həqiqətlərinin müasir üslubda dünya ictimaiyyətinə çatdırılması, cəmiyyətin hərtərəfli məlumatlandırılması, ictimai rəyə hörmət kimi mühüm amillər üzərində qurulur.

**(ardı 3-cü səhifədə)**

# Sülh razılaşması Cənubi Qafqazda sabitliyin və inkişafın əsas şərtidir

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyev adı çəkilən müsahibənin əvvəlində müxbirin Ermənistanla hazırkı vəziyyət barədə sualına cavabında müharibədən ötən bir ildən çox bir müddət ərzində Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət daşıdığı ərazinin Ermənistan-Azərbaycan sərhədi ilə müqayisədə daha çox sabit olduğunu bildirib. Dövlətimizin başçısı sərhəddə törədilən təxribatların, toqquşmaların səbəbini isə haqlı olaraq Ermənistanın qisas almaq cəhdlərindən vaz keçməməsi ilə əlaqələndirib: “İkinci Qarabağ müharibəsində məğlubiyyət onlar üçün çox ağrılı oldu. Bu məğlubiyyət demək olar ki, onların otuz ildir davam edən “yenilməz ordusu”, “gücü”, “əsgər və komandirlərinin cəsarəti” haqqında müharibə təbliğatını və ideoloji zəminini darmadağın etdi. 44 gün davam edən müharibə zamanı Ermənistan ordusu tamamilə məhv edildi və onlar ötən il noyabrın 10-da kapitulyasiya aktına imza atmaq məcburiyyətində qalaraq bizim 44 günlük müharibədə geri almadığımız əraziləri geri qaytarmağa razılıq bildirdilər. Buna görə də Ermənistan cəmiyyətində, siyasi spektrində revanşizm əlamətləri görünür. Buna görə də Rusiya sülhməramlılarının xidmət etdiyi ərazidə buna imkanın olmadığını dərk edərək onlar dövlət sərhədində hərbi təxribatlar törətməyə cəhd göstərirlər”.

Dövlətimizin başçısı müsahibədə vurğulayıb ki, Ermənistanın son vaxtlar törətdiyi təxribatlar həm də məlum ərazidə dövlət sərhədinin təyin olunmaması ilə bağlı idi. Belə ki, ötən əsrin 90-cı illərinin əvvəlində hər iki ölkənin müstəqilliyinin bərpasından dərhal sonra Azərbaycanın həmin hissəsi Ermənistanın işğalına məruz qaldı. Buna görə həm fiziki, həm də siyasi olaraq sərhədlərin demarkasiya və delimitasiyası reallaşmadı. Beləliklə, keçən ilin noyabrında İkinci Qarabağ müharibəsi başa çatanda həmin yerlərin uca dağlarla əhatələnməsi və qarlı olması orada möhkəmlənməyə imkan vermədi. Bu ilin may ayında isə qar əriməyə başlayanda Azərbaycan Ordusu dövlət sərhədinə tərəf hərəkət etdi və mövcud sərhədin haradan keçməsi ilə bağlı müəyyən anlayışa əsasən, dövlət sərhədində mövqe tutdu. Bundan sonra Ermənistan Azərbaycanın hər hansı bir səbəb olmadan ərazisinə müdaxilə etməsi ilə bağlı iddialar irəli sürməyə başladı. Beləliklə, Azərbaycan Ordusu öz ərazimiz sayılan hissədə dayandı.

Prezident İlham Əliyev müsahibədə, həmçinin Qarabağ müharibəsinin bitməsindən dərhal sonra Ermənistana sərhədlərin demarkasiyası üzərində işləməyə başlamağın, delimitasiya üzrə birgə işçi qrupu yaratmağın və ərazidə bütün mübahisələri masa üzərində aydınlaşdırmağın təklif edildiyini, lakin bu ölkənin vurğulanan məsələlərə laqeyd münasibət bəslədiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev daha sonra deyib: “Müharibə bitəndən sonra bir ildən çox müddətdə Ermənistan tərəfindən dövlət sərhədində hərbi təxribatlar törətmək üçün bir neçə cəhd edilib. Onların hamısı uğursuz oldu. Bütün bu səylər nəticəsində onlar öz hərbi mövqelərini itirdi və Azərbaycan dövlət sərhədində mövqelərini gücləndirdi. Eyni hal keçən ay baş verdi. O zaman onlar bilərəkdən Azərbaycan Ordusuna qarşı qəsdən təxribat törətdilər və bu, bir neçə gün davam etdi. İlk günlər ərzində atəş açılmırdı, çünki Azərbaycan əsgərləri həmin ərazinin onlara aid olmadığını və getməli olduqlarını onlara başa saldı və onlar da getdilər. Lakin bizə qarşı artilleriya hücumlarına başladılar. Bizdə bir neçə nəfər həlak oldu və yaralandı. İndi vəziyyət sabitdir. Biz özümüz heç nə planlaşdırmamışdıq, əks halda, biz dayanmazdıq... Ermənistanın istənilən yerdə bizi dayandırmaq üçün hərbi bacarığı yoxdur. Bizim belə planlarımız yoxdur və buna görə də biz dayandıq”.

Tarixi qələbəmizdən sonra dövlətimizin başçısının müsahibədə vurğuladığı kimi, Azərbaycan daim sabitliyin, proqnozlaşdırmanın tərəfində dayandığını bəyan edib, Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyib. Buna görə ölkəmiz ötən müddətdə işğalçının bütün manevrlərini, yenidən qruplaşmalarını və Azərbaycana təhlükəli ola biləcək hərbi potensial yaratmaq üçün bütün cəhdlərini çox yaxından izləyib. Bunun baş verdiyi təqdirdə isə, təhlükənin dərhal aradan qaldırılacağını xüsusi vurğulayıb.

Prezident İlham Əliyevin sözləri ilə desək, beynəlxalq oyunçular da Azərbaycanın bu mövqeyindən xəbərdardırlar. Amma ölkəmiz bu məsələdə müsbət dinamika görərsə, əlbəttə ki, bundan yararlanılacaq və sülhün gücləndirilməsinə öz töhfəsini verəcək.

Müsahibədə müxbirin dövlətimizin başçısına verdiyi “Sizcə Ermənistanla, sadəcə, atəşkəs deyil, real sülh sazişi haqqında nə zaman danışmaq olar?” sualına cavabdan əvvəl bir məqama toxunmaq istərdik. Belə ki, Azərbaycan uzun illər ərzində Ermənistanın ədalətsiz mövqeyinin dəyişməsi, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün səylər göstərsə də, real nəticə görünmədi, düşmən işğalçılıq yolundan dönmədi. Son illərdə isə düşmən ölkənin rəsmiləri tərəfindən yeni ərazilərimizi tutmaq iddiaları açıq şəkildə dilə gətirildi, 2019-cu ildə baş nazir Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” kimi təxribat xarakterli bəyanatları aparılan danışıqlar prosesinə ciddi zərbə vurdu.

Azərbaycan isə haqq-ədalət yolunda inamla irəlilədi, beynəlxalq güclərin respublikamıza qarşı ikili standartlarından heç də ruhdan düşmədi, Ermənistanın işğal siyasətini, təxribatlarını ifşa etməkdən çəkinmədi, beynəlxalq birliyi qəsbkarın



faşizm mahiyyəti barədə vaxtaşırı məlumatlandırdı.

Yeri gəlmişkən, burada bir məsələni də xatırlatmaq yerinə düşərdi. Vətən müharibəsi ərəfəsində Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə başlayacağı heç kimə sirr deyildi. Çünki düşmən bunu cəzasızlıq mühitindən yararlanıb, əgər belə demək mümkündürsə, dünyaya bəyan etməkdən çəkinmirdi. Prezident İlham Əliyev isə çıxışlarında, sammitlərdə, debatlarda tarixi və hüquqi arqumentlərə əsaslanaraq, Ermənistanın mövqeyini darmadağın edir, işğalçının danışıqların mahiyyətini və formatını məhv etməsi məsələsini diqqətə çatdırır və Nikol Paşinyanı dünya ictimaiyyətinin gözü qarşısında məğlubiyyətə uğradırdı. Məsələn, dövlətimizin başçısı İkinci Qarabağ savaşına bir neçə gün qalmış, sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasında beynəlxalq ictimaiyyəti Ermənistanın yeni müharibəyə hazırlaşması barədə xəbərdar etdi və bunun qarşısını almağa çağırdı. Beynəlxalq birliyin susqunluğundan daha da ürəklənən işğalçı Ermənistan isə yenə də dayanmadı və sentyabrın 27-də qoşunların təmas xəttində daha genişmiqyaslı təxribata əl atdı. Lakin bu, qəsbkar ölkənin darmadağın olması və kapitulyasiyası ilə nəticələndi.

Prezident İlham Əliyev yuxarıda qeyd edilən suala cavabında da bu məqama toxunub. Dövlətimizin başçısı deyib: “İkinci Qarabağ müharibəsindən əvvəl Ermənistanın baş naziri açıq şəkildə bildirirdi ki, “Qarabağ Ermənistandır və nöqtə”. Bu bəyanat, əslində, danışıqlar prosesini məhv etdi və onların keçən il yaşadığı acı məğlubiyyətin elementlərindən biri idi. Lakin indi Ermənistanın sanki bu məsələ ilə bağlı heç bir mövqeyi yoxdur. Biz çox açıq şəkildə deyirik ki, dərhal Ermənistanla hərtərəfli sülh razılaşması üzərində danışıqlara başlamaq istəyirik... Bu, atəşkəs razılaşması yox, tam sülh razılaşması olacaq. Lakin ümid edirəm ki, yəqin Avropa tərəfdaşları Ermənistanı bu mövqeyinin gələcəyinin olmamasına inandıra biləcəklər. Hesab edirəm ki, Azərbaycanla sülh razılaşması olmazsa, onlar gələcəkdə yenə də əziyyət çəkə bilərlər”.

Bəli, Prezident İlham Əliyev müharibədən dərhal sonra Azərbaycanın Ermənistanla sülh danışıqlarına və sülh razılaşması üzərində işləməyə başlamağa hazır olması barədə dəfələrlə açıq bəyanat verib. Lakin indiyədək Ermənistan rəhbərliyindən heç bir müsbət cavab verilməyib.

Deməli, rəsmi İrəvan bu susqunluqla sülh məramında olmadığını göstərib. Çünki imzalandığı təqdirdə sülh razılaşmasının əsas müddəalarından biri də hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması olacaq. Ermənistan isə Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəməyib. Halbuki bütün dünya Azərbaycanın ərazi bütövlüyünü və Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Ermənistan isə indiyədək nə ərazi bütövlüyünü tanıdığını, nə də tanımadığını söyləyir.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***